# AZƏRBAYCAN RESPUBLİKASININ
# EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ

## Ə M R

**№ 210/ü**

**Bakı şəhəri** **«12» may 2009-cu il**

**Bakı şəhəri və Abşeron yarımadası ərazisində meşə fonduna daxil olmayan yaşıllıqların mühafizəsinə dair tədbirlər planının təsdiq edilməsi barədə**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2009-cu il aprelin 22-də keçirilmiş və cari ilin birinci rübündə sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş geniş iclasında respublikada, əsasən də Bakı şəhəri və Abşeron yarımadasının ərazisində son vaxtlar yaşıllıqların kütləvi şəkildə qırılaraq məhv edilməsi hallarının müşahidə olunduğu bildirilmiş və Ekologiya və Təbii Sərvətlər Nazirliyinə bunun qarşısının alınması istiqamətində müvafiq tədbirlərin görülməsi tapşırılmışdır.

Müşavirənin nəticələrindən irəli gələn məsələlərin həlli üçün Bakı şəhəri və Abşeron yarımadası ərazisində meşə fonduna daxil olmayan yaşıllıqların mühafizəsinin gücləndirilməsi məqsədi ilə Azərbayjan Respublikası Prezidentinin 2001-ci il 18 sentyabr tarixli 583 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə»nin 15.6-cı bəndinə əsaslanaraq

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühitin Mühafizəsi Departamentinin Bakı şəhəri və Abşeron yarımadası ərazisində meşə fonduna daxil olmayan yaşıllıqların mühafizəsinə dair Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

2. Bakı şəhər Ekologiya və Təbii Sərvətlər Departamenti və ərazi Ekologiya və Təbii Sərvətlər Şöbələri öz xidməti ərazilərində yaşıllıqların mühafizəsinə dair

tədbirlər planını hazırlayıb razılaşdırılması üçün Ətraf Mühitin Mühafizəsi Departamentinə təqdim etsinlər.

3. Ümumi Şöbəyə (A.Ələkbərovaya) tapşırılsın ki, bu əmrin surətinin Nazirliyin aidiyyəti üzrə struktur bölmələrinə çatdırılmasını təmin etsin.

4. Əmrin ijrasına nəzarət Ətraf Mühitin Mühafizəsi Departamentinin direktoru X.Hüseynova həvalə edilsin.

**Nazir** **H.Bağırov**